AZERBAIJAN

# Olimpiya dünyası

www.olimpiyadunyasi.az

*Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti*

№ 1 (1448), 14 - 27 yanvar 2020-ci il

Qəzet 2001-ci ildən çıxır.



## Lozannada yeniyetmələrin III Qış Olimpiya Oyunları keçirilir

İsveçrənin Lozanna şəhərində yeniyetmələrin III Qış Olimpiya Oyunlarının təntənəli açılış mərasimi keçirilib. "Vodua" arenasında təşkil olunan mərasimdə Azərbaycan nümayəndə heyətinin tərkibində Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə, baş katibin müavini Azər Əliyev və Azərbaycan Qış İdman Növləri Federasiyasının vitse-prezidenti Rauf Xəlilov yer alıb.

Yeniyetmələrin Qış Olimpiya Oyunlarında ilk dəfə iştirak edən Azərbaycan komandasını fiqurlu konkisürmə yarışlarında Yekaterina Ryabova təmsil edir.

Yeniyetmələrin Oyunlarında 14 yaşından 18 yaşınadək idmançılar iştirak edirlər. İsveçrə yığması turnirin ev sahibi olaraq, yarışlara ən çox - 112 idmançı ilə qoşulub.

Qeyd edək ki, Yeniyetmələrin III Qış Olimpiya Oyunları yanvarın 22-də başa çatacaq.



## Azərbaycan Qran-Prisinin dəqiq cədvəli açıqlanıb

Formula 1 şirkəti dünya çempionatının yeni mövsümü üçün mərhələlərin dəqiq cədvəlini açıqlayıb. İyunun 5-7-də təşkil olunacaq Azərbaycan Qran-Prisinin sərbəst yürüşlərdən ikisi birinci yarış gününə saat 13:00-14:30-a və 17:00-18:30-a təsadüf edəcək. Sonuncu sərbəst yürüş isə iyunun 6-da saat 14:00-dan 15:00-dək davam edəcək. İkinci yarış günündə həm də təsnifat yürüşü keçiriləcək. Saat 17:00-da start götürəcək yürüş 1 saat davam edəcək. İyunun 7-də isə saat 16:10-da Azərbaycan Qran-Prisinə start veriləcək.

Qeyd edək ki, Azərbaycan Qran-Prisi bu il ardıcıl 5-ci dəfə təşkil olunacaq.



## Olimpizm

### Tokio-2020 Olimpiadasının məşəl estafetinə mart ayında start veriləcək

Yaponiyada keçiriləcək XXXII Yay Olimpiya Oyunlarının məşəl estafetinə martın 12-də start veriləcək. Bu barədə qurumun İcraiyyə Komitəsinin Lozannada keçirilən illik hesabat yığıncağında bildirilib. Olimpiadanın vətəni olan Yunanıstanda alovlandırılacaq məşəli ümumilikdə, 10 min nəfər daşıyacaq. Estafet martın 26-da Fukusimadan davam edəcək və 121 gün ərzində Yaponiyanın bütün 47 prefekturasını gəzəcək.

Xatırladaq ki, Tokio-2020 Yay Olimpiya Oyunları bu il iyulun 24-dən avqustun 9-dək keçiriləcək.

### Beynəlxalq Olimpiya Komitəsinə yeni üzvlər seçilib

Beynəlxalq Olimpiya Komitəsinin (BOK) Lozannada keçirilən 135-ci sessiyasında quruma yeni üzvlərin qəbul edilməsi təsdiqlənib. Bununla da təşkilatın üzvlərinin sayı 101 nəfərə çatıb. Yeni üzvləri təbrik edən BOK-un prezidenti Tomas Bax deyib: "İnanıram ki, təşkilatımız təcrübəli həmkarlarımızın faydalı məsləhət və tövsiyələrindən yararlana biləcək".

Qeyd edək ki, BOK-un yeni üzvləri Yaponiya Olimpiya Komitəsinin prezidenti Yasuxiro Yamaşita, Beynəlxalq Futbol Federasiyaları Assosiasiyasının prezidenti (FİFA) Canni İnfantino və Beynəlxalq Tennis Federasiyasının prezidenti Devid Haqqertidir.

### Tokionun Olimpiya Oyunlarına hazırlığı qənaətbəxş hesab edilir

Beynəlxalq Olimpiya Komitəsi (BOK) İcraiyyə Komitəsinin Lozannada illik hesabat yığıncağında Tokio-2020 Yay Olimpiya Oyunlarına hazırlıq məsələləri müzakirə edilib. Tokio-2020-nin Təşkilat Komitəsinin nümayəndə heyətinin rəhbəri ölkəsinin dörd ildən bir keçirilən idman yarışına hazırlığı barədə hesabat verib.

TOKYO 2020

BOK-un Koordinasiya Komissiyasının sədri Con Kouts Yaponiya hökumətinin XXXII Yay Olimpiya Oyunlarına hazırlıq prosesinin normal getdiyini və əsas işlərin başa çatdırıldığını bildirib. O deyib: "İdman yarışlarının keçiriləcəyi 9 qurğunun yalnız birində işlər tamamlanmayıb ki, o da gələn ay təhvil veriləcək".

Xatırladaq ki, Tokio-2020 Yay Olimpiya Oyunları bu il iyulun 24-dən avqustun 9-dək keçiriləcək.

### Olimpiya Oyunları dövründə etiraz aksiyaları keçirən idmançılar cəzalandırılacaqlar

Beynəlxalq Olimpiya Komitəsinin (BOK) İcraiyyə Komitəsi Olimpiya Oyunları dövründə idmançıların davranışı ilə bağlı yeni qaydaları bəyənib. Yeni qaydalara əsasən, rəsmi mərasimlər və yarışlar dövründə etiraz aksiyaları keçirən idmançılar cəzalandırılacaqlar.

Bu qərar BOK İcraiyyə Komitəsinin və İdmançılar Komissiyasının birgə iclasında qəbul edilib.

Bundan sonra Olimpiya Oyunlarının iştirakçılarının oyun meydanında, Olimpiya kəndində, təltifetmə prosesində, habelə Oyunların açılış və bağlanış mərasimləri dövründə bu və ya digər qərardan narazılığını və ya siyasi baxışlarını nümayiş etdirmələri qadağan olunur.

İdmançıların siyasi xarakterli simvollar, siyasi jestlər nümayiş etdirməsi, bir dizi üstə dayanması, mərasimlərin protokol qaydalarını pozması qadağan edilir. Bu qaydaların pozulmasına görə cəzaların dərəcəsi Milli Olimpiya Komitəsi, Beynəlxalq Federasiya və BOK tərəfindən müəyyən ediləcək.

Bununla bərabər, idmançılar jurnalistlərlə söhbət zamanı, komandaların müşavirələrində və sosial şəbəkələrdə öz baxışlarını bildirmək hüququna malikdirlər.

## Anons

*İlin ilk Qran-prisi Təl-Əvivdə təşkil ediləcək*
Səh. 2

**Mariya Stadnik:**
"Azərbaycanın idman şərəfini qorumaqdan qürur duyuram
Səh. 4

*"Könüllülər ili"nin elan olunması hər bir Azərbaycan gəncinin ürəyincədir*
Səh. 5

Soyuq qışda yerini dəyişən futbolçular
Səh. 7

## *Tokio-2020 Olimpiadasına yollanacaq Azərbaycan nümayəndə heyətinin rəhbəri müəyyənləşib*



Tokio-2020 Yay Olimpiya Oyunlarında ölkəmizi təmsil edəcək Azərbaycan nümayəndə heyətinin rəhbəri müəyyənləşib. Tokio-2020-də nümayəndə heyətinin rəhbəri (Şef de-mission) Gənclər və İdman Nazirliyinin idman şöbəsinin müdiri Fərid Mansurov təyin edilib. F.Mansurov 2004-cü ildə Afina Yay Olimpiya Oyunlarının yunan-Roma güləşi yarışlarında bütün rəqiblərinə qalib gələrək çempion olub.

## Mina Abbasova “2019-cu ilin gimnastı” nominasiyası üzrə təltif olunub



Macarıstanda yaşayan, saysız beynəlxalq turnirlərdə Azərbaycan bayrağı ilə çıxış edərək sürəkli qələbələr qazanan 10 yaşlı Mina Abbasovaya Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsində “Azərbaycan-Ukrayna” Beynəlxalq Alyansının təsis etdiyi “2019-cu ilin gimnastı” nominasiyası üzrə mükafatı təqdim olunub.

İndiyə qədər iştirak etdiyi Avropanın müxtəlif arenalarında - Macarıstan, İtaliya, İspaniya, Almaniya, Rumıniya, Polşa, Sloveniya, Xorvatiya, Çexiya, Lüksemburq və başqa ölkələrdə, eyni zamanda, Azərbaycandakı yarışlarda 39 medala sahib olan balaca Mina görüşdə Macarıstanın paytaxtı Budapeştdə təhsil aldığı məktəbdəki uğurlarından, müəllimlərindən, idman karyerasından həvəslə danışıb. O, qış tətilində Bakıya gəldiyi üçün çox xoşbəxt olduğundan, burada doğmaları, dostları ilə gözəl vaxt keçirdiyindən, paytaxtımızı dünyanın ən gözəl şəhəri kimi ürəkdən sevdiyindən söhbət açıb, özü haqqında çəkilən “Balaca gimnast” sənədli filmini qurumun sədrinə hədiyyə edib.

## Güləşçilərimizin uğurlu Türkiyə sınağı

Türkiyənin İstanbul şəhərində sərbəst və qadın güləşi üzrə Yaşar Doğunun xatirə turnirinə yekun vurulub. Azərbaycan güləşçiləri İstanbul sınağını uğurla başa vurublar. İlk yarış günündə qadınlar arasında 3 çəkidə medalçılar müəyyənləşib. Yığmamızın üzvlərindən Türkan Nəsirova (50 kq) və İrina Netreba (68 kq) bürünc medal qazanıb. Alyona Kolesnik (57 kq) isə 5-ci yerlə kifayətlənib.

Yarışların ikinci günü komandamız üçün daha uğurlu olub. Yarışda qadınların mübarizəsində Elis Manolova (65 kq) bütün rəqiblərinə qalib gələrək çempion olub. Sərbəst güləşçilərimizdən Əli Rəhimzadə (65 kq) qızıl, Əfqan Xaşalov (57 kq), Turan Bayramov (65 kq), Ağahüseyn Mustafayev (70 kq) və Osman Nurməhəmmədov (86 kq) bürünc medala layiq görülüblər.

Sonuncu yarış günündə qadın güləşçilərimizdən Tatyana Omelçenko (62 kq) gümüş, onunla eyni çəkidə çıxış edən Elmira Qəmbərova isə bürünc medal qazanıb. Ümumilikdə 1 qızıl, 1 gümüş və 3 bürünc medal qazanan qadınlardan ibarət yığmamız 99 xalla komanda hesabında 2-ci yeri tutub. Türkiyə 1-ci, Bolqarıstan isə 3-cü olub. Sərbəst güləşdə Abubakr



Abakarov (79 kq), Aslanbek Alborov (92 kq), Camaləddin Məhəmmədov (125 kq) qızıl, İntiqam Vəlizadə (61 kq) gümüş, Hacımurad Hacıyev (74 kq) bürünc medala sahib olub. Beləliklə, ümumilikdə 4 qızıl, 1 gümüş və 6 bürünc medal əldə edən millimiz komanda hesabında 180 xalla 1-ci yeri tutub. Türkiyə 2-ci, Gürcüstan isə 3-cü olub. Qeyd edək ki, memorialda beynəlxalq dərəcəli hakim Xəzər Allahverdiyev ədaləti qoruyub.

## İlin ilk Qran-prisi Təl-Əvivdə təşkil ediləcək



Yanvarın 23-25-də İsrailin paytaxtı Təl-Əvivdə Qran-Pri turniri keçiriləcək. Yarışda 92 ölkədən 600-dən çox cüdoçunun iştirakı planlaşdırılır. Turnirdə Azərbaycanı 15 cüdoçu təmsil edəcək.

Qeyd edək ki, bundan əvvəl keçirilən analoji yarışda komandamız iki medal qazanıb. Belə ki, qadın cüdoçumuz İrina Kindzerska (78 kq-dan yuxarı) bütün rəqiblərini məğlub edərək qızıl medala sahib olub. Komandamızın digər üzvü Məmmədəli Mehdiyev (90 kq) bürünc medala layiq görülüb. Bu nəticə ilə komandamız ümumi hesabda 5-ci olub. Turnirdə ən yüksək nəticəni 4 qızıl, 2 gümüş, 1 bürünc medalla İsrail komandası göstərib.

## Olimpiya kuboku BMT-nin qaçqınlar üzrə ali komissarına təqdim edilib

Pyer de Kuberten tərəfindən 1906-cı ildə təsis edilən Olimpiya kuboku BMT-nin qaçqınlar üzrə ali komissarı Filippo Qrandiyə təqdim edilib. Təqdimat mərasimində Beynəlxalq Olimpiya Komitəsinin (BOK) prezidenti Tomas Bax bu mükafatın hər il Olimpiya ideallarına sadiq olan qurumlara və şəxslərə təqdim edildiyini bildirib. O deyib ki, BMT-nin dəstəyi olmadan BOK qaçqınlar üçün Olimpiya komandasını yarada bilməzdi. İlk dəfə qaçqınlar komandası Olimpiada-2016-da iştirak edib. O zaman komandanın tərkibinə 10 idmançı daxil edilib. Tokio Yay Olimpiya Oyunlarında isə 50-yə yaxın idmançı komandanın heyətində mübarizə aparacaq.

## 2022-ci ildə gənclər arasında Yay Olimpiya Oyunları payızda keçiriləcək

2022-ci ildə gənclər arasında Yay Olimpiya Oyunlarının təşkilatçıları bu yarışların payızda keçirilməsini qərara alıblar.

Yarışlar oktyabrın 22-də başlanacaq və noyabrın 9-da başa çatacaq. Olimpiadanın keçiriləcəyi yer dəyişmir: Oyunlar Seneqalın paytaxtı Dakarda keçiriləcək.




Gənclər arasında Yay Olimpiya Oyunlarının vaxtının dəyişdirilməsi iştirakçıların əksəriyyətinin dərs məşğələlərin cədvəli və Afrikada iqlim şəraiti ilə bağlıdır. Oyunlar payızda keçiriləcəyi halda idmançıların çoxu dərs məşğələlərini yarışlarla uzlaşdıra biləcəklər. İlin bu fəslində Seneqalda yağıntıların az olması da əlverişli amildir.

Xatırladaq ki, Dakarda keçiriləcək Oyunlar Afrika qitəsində ilk Olimpiada olacaq.

Seneqal 2022-ci ildə gənclər arasında Yay Olimpiya Oyunlarına ev sahibliyi etməyə yeganə namizəd olub.

* * *

Beynəlxalq Olimpiya Komitəsinin (BOK) İcraiyyə Komitəsinin İsveçrənin Lozanna şəhərində keçirilən iclasında 2022-ci ildə Seneqalın paytaxtı Dakarda keçiriləcək Yeniyetmələrin IV Yay Olimpiya Oyunlarının proqramına bir neçə idman növü salınması ilə bağlı qərar qəbul edilib. Belə ki, beysbol-5, uşu və futzal oyunların proqramına əlavə olunub.

## Sərbəst güləşçilər xatirə turnirində




Yanvarın 15-də 20 Yanvar şəhidi Müşfiq İsayevin xatirəsinə sərbəst güləş üzrə turnir keçiriləcək.

Bakı İdman Sarayında təşkil olunacaq yarışda 2003-2004-cü illər təvəllüdlü yeniyetmə güləşçilər mübarizə aparacaq. 23-cü dəfə təşkil olunacaq ənənəvi turnirdə pəhləvanlarımızla yanaşı, Rusiya, Gürcüstan, Qazaxıstan və Özbəkistan təmsilçiləri də qüvvələrini sınayacaqlar.

Gənclər və İdman Nazirliyi, Milli Olimpiya Komitəsi və Azərbaycan Güləş Federasiyasının təşkilatçılığı ilə reallaşacaq Memorialın keçirilməsində məqsəd Müşfiq İsayevin xatirəsini yad etməklə yanaşı, yeniyetmələr arasında sərbəst güləşin inkişafına və kütləviliyə nail olmaq, ölkədə güləşin bu növü üzrə perspektivli idmançıları aşkar etməkdən ibarətdir.

Qeyd edək ki, bu gün Bakı İdman Sarayında hakimlərin və məşqçilərin seminarı təşkil olunacaq. Bundan sonra isə püşkatma mərasimi keçiriləcək.

## Yığma komandada yeni baş məşqçi

Azərbaycan Basketbol Federasiyasında Rəyasət Heyətinin iclası keçirilib. İclasda Azərbaycan Basketbol Federasiyasının 2020-ci ilin iş planı, işçi komissiyaların təsdiq edilməsi, Jr.NBA Liqasına hazırlıq prosesi və digər təşkilati məsələlər müzakirə edilib.

Məşqçilər Şurasının təklifi ilə Tahir Baxşiyev 16 yaşadək basketbolçulardan ibarət Azərbaycan milli yığma komandasının baş məşqçisi təyin edilib.

## Bakıda keçiriləcək İBSA Qran-Pri turnirinin hazırlığına start verilib

Mayın 11-12-də Bakıda paracüdo üzrə İBSA Qran-Pri turniri keçiriləcək. Yarışa 40-dan çox ölkənin nümayəndələrinin iştirak edəcəyi gözlənilir. Azərbaycan Milli Paralimpiya Komitəsinin ofisində qurumun prezidenti İlqar Rəhimovun sədrliyi ilə Təşkilat Komitəsinin ilk iclası keçirilib. İclasda hazırlıq barədə müzakirələr aparılıb və tədbirlər planı təsdiq edilib.

Qeyd edək ki, bu yarışdan sonra Tokio-2020 Yay Paralimpiya Oyunlarının paracüdo yarışlarında iştirak edəcək idmançıların adları açıqlanacaq.

## Millimiz Avropa çempionatının final mərhələsində iştirak edəcək

Avropa Voleybol Konfederasiyası 2021-ci ildə qadınlar və kişilər arasında keçiriləcək Avropa çempionatının final mərhələsində iştirak edəcək komandaların adlarını açıqlayıb.



Qadın voleybolçular arasında çempionatın final mərhələsində Azərbaycan ilə yanaşı, Serbiya, Bolqarıstan, Xorvatiya, Rumıniya (ev sahibləri), Türkiyə, İtaliya, Polşa, Hollandiya, Almaniya, Rusiya və Belçika komandaları iştirak edəcəklər.

Kişi voleybolçular arasında final yarışında Polşa, Çexiya, Finlandiya, Estoniya (ev sahibləri), Serbiya, Sloveniya, Fransa, Rusiya, İtaliya, Ukrayna, Almaniya və Belçika güclərini sınayacaqlar.

## *Azərbaycan Super Liqasında yaranan qısa fasilə başa çatdı*

Qadın voleybolçular arasında Azərbaycan Super Liqasında birinci dövrənin növbəti oyunun keçirilmə yeri və başlama vaxtı dəqiqləşib.

Çempionatda Avropa Olimpiya Təsnifat Turniri ilə bağlı yaranan qısa fasilə başa çatdı. Bu gün saat 17:00-da UNEC “Murov”u sınağa çəkəcək. Görüş Azərbaycan Voleybol Mərkəzində keçiriləcək.

Qeyd edək ki, mövsümdə hələlik iki matç təşkil olunub. “Mübariz” “Murov”u, “Azərreyl” isə “Abşeron”u 3:1 hesabı ilə qalib gəlib.

Şahmat

## Beynəlxalq qrossmeyster mərhum Vüqar Həşimovun xatirəsi yad edilib

Dünyanın parlaq zəka sahiblərindən biri olan Vüqar Həşimovun əbədiyyətə qovuşmasından altı il ötür. Bununla əlaqədar yanvarın 11-də mərhum şahmatçının yaxınları, şahmatçılar və ölkə ictimaiyyətinin nümayəndələri ikinci Fəxri xiyabana gələrək onun məzarını ziyarət ediblər.



Vüqar Həşimovun məzarı önünə gül dəstələri qoyan tədbir iştirakçıları onun xatirəsinə ehtiramlarını bildiriblər.

Mərhum şahmatçının atası Qasım Həşimov, Əməkdar məşqçi Xanlar Allahverdiyev, qrossmeyster Şəhriyar Məmmədyarov və başqaları çıxış edərək tanınmış şahmatçının xatirəsinin daim böyük ehtiramla yad olunduğunu vurğulayıblar. Çıxış edənlər Vüqar Həşimovun qısa, lakin şərəfli ömür yolundan, uğurlu karyerasından danışıblar.

Diqqətə çatdırılıb ki, Vüqar bu dünyadan köçsə də, onun xatirəsi şahmatsevərlərin qəlbində daim yaşayır. Təsadüfi deyil ki, hər il Şəmkirdə keçirilən ənənəvi Vüqar Həşimov memorialında iştirak etmək üçün dünyanın ən güclü şahmatçıları ölkəmizə gəlirlər. Bu, dünya şahmat elitasının Vüqar Həşimovun xatirəsinə yüksək ehtiramının göstəricisidir.

Şahmat tariximizin erkən sönən ulduzu 1986-cı il iyulun 24-də Bakıda anadan olub. Şahmata erkən yaşlarından maraq göstərən Vüqar uşaqlıq illərində "Şahmat klubu" verilişindəki çıxışları ilə tanınıb. 2002-ci ildə qrossmeyster adını alan Vüqar Həşimov buna qədər üç dəfə Azərbaycan çempionu olub. Mərhum qrossmeyster müxtəlif yaş kateqoriyalarında dünya və Avropa çempionatlarının müxtəlif əyarlı 21 medalını qazanıb, 50-dən artıq beynəlxalq turnirin qalibi olub. V.Həşimovun 2009-cu ildə Azərbaycan yığmasının heyətində Avropa çempionatında həlledici görüşdə qələbəsi şahmat tariximizdə ilk dəfə Avropa çempionluğunun qazanılmasında həlledici rol oynayıb. O, ömrünün son anına qədər dünyanın ən güclü şahmatçılarından biri hesab edilirdi. Vüqarın vaxtsız ölümü dünya şahmat aləmi üçün böyük itki oldu.

## Şahmat festivalında 3 şahmatçımız mübarizə aparacaq

Yanvarın 21-də Cəbəllütariqdə şahmat üzrə "Gibraltar International Chess Festival 2020" turniri start götürəcək. 10 turdan ibarət olacaq festivalın nüfuzlu "Masters" turnirində Azərbaycanın 3 şahmatçısı - Şəhriyar Məmmədyarov, Vasif Durarbəyli və Günay Məmmədzadə mübarizə aparacaqlar.

"Masters" turnirdə hər il onlarca qrossmeyster, o cümlədən "2700 klubu"nun üzvləri iştirak edirlər. Artıq uzun illərdir ki, bu festival İsveçrə sistemi üzrə keçirilən ən güclü turnir hesab olunur. Bu il festivalın "Masters" turnirinə dünyanın müxtəlif ölkələrindən 228 şahmatçı qatılacaq. Turnirin reytinq favoriti təmsilçimiz Ş.Məmmədyarovdur.

## Fuad Cəfərovun xatirəsinə həsr edilən şahmat memorialı başa çatıb

Azərbaycanın tanınmış şahmat məşqçisi, Respublika Şahmat Mərkəzinin ilk direktoru, şahmat turnirlərinin peşəkar təşkilatçısı Fuad Cəfərovun xatirəsinə həsr edilən memorial başa çatıb.

Memorial çərçivəsində blits, rapid, uşaq turnirləri, eləcə də A (qrossmeyster və beynəlxalq usta) və B (Open) qruplarında oyunlar keçirilib.

Ümumi nəticələrə görə, blits yarışında 12,5 xalla İran, A qrupunda 17,5 xalla "Sofiya" komandaları qalib olublar. Yeddi turdan ibarət olan Open turniri yerli şahmatçı Şahin Hüseynovun (6 xal) qələbəsi ilə nəticələnib.

Uşaq turnirində isə 12 yaşlılar arasında Azərbaycan şahmatçıları Tunar Davudov oğlanlar (7 xal), Ayan Hüseynli qızlar (5 xal), 9 yaşlılarda Murad Xəlilzadə oğlanlar (6 xal), Dinarə Hüseynova qızlar (4 xal) arasında qalib olublar.

Turnirin sonuncu günü keçirilən rapid yarışının qalibi 7 turdan 6 xal toplayan Əhməd Əhmədzadə olub. Memorialda Azərbaycan ilə yanaşı, İran, Rusiya, Birləşmiş Ərəb Əmirliklərindən 250 şahmatçı mübarizə aparıb.

Turnirin əsas təşkilatçısı, yarışların baş hakimi, beynəlxalq dərəcəli hakim İlqar Bacarani olub.

## Baş məşqçidən şahmatçı qızlara hədiyyə

Azərbaycanın qadınlardan ibarət şahmat millisinin üzvlərinə "Qarabağ"ın forması hədiyyə olunub. Millinin üzvləri -Türkan Məmmədyarova, Günay Məmmədzadə,



Xanım Balacayeva, Gülnar Məmmədova, Ülviyyə Fətəliyeva və kapitan Zeynəb Məmmədyarova Ağdam klubunun forması ilə şəkil çəkdiriblər.

Qeyd edək ki, bir müddət əvvəl İdman Araşdırmalar Mərkəzinin tədbirində "Qarabağ"ın baş məşqçisi Qurban Qurbanov şahmatçı qızlara komandasının formasını hədiyyə edəcəyini deyib.

## Azərbaycan idmançısı Polşada mükafatçılar sırasında yer aldı

Azərbaycan idmançısı Vladimir Litvintsev Polşada keçirilən Torun kuboku turnirində birinci yeri tutub. İdmançımız konkisürmə üzrə kişilərin fərdi yarışında ən yüksək nəticə göstərərək qalib adını qazanıb.

İdmançımız uğurlu çıxışı ilə hakimlərdən 145,99 xal alıb. Rusiyalı Mark Kondratyuk (135,9) ikinci, avstriyalı Brendan Kerri (131,39) isə üçüncü olublar.

## Atletika üzrə paytaxt çempionatının qalibləri müəyyənləşib

Respublika Olimpiya Mərkəzində keçirilən atletika üzrə Bakı çempionatının qalibləri müəyyənləşib. Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin, Azərbaycan Atletika Federasiyasının (AAF) birgə təşkilatçılığı ilə keçirilən yarışda atletlər qaçış, tullanma və atma növlərində qüvvələrini sınayıblar.

Çempionatda paytaxtın 10 komandasından 100-ə yaxın atlet birincilik uğrunda mübarizə aparıb.

Yarışın ikinci günündə oğlanlar arasında uzunluğa tullanma yarışında Yadulla İbrahimov və nüvəitələmədə isə İsmayıl Əliyev qalib adını qazanıblar. Qızların yarışında isə uzunluğa tullanmada Yelena Pextireva, nüvəitələmədə isə Günel Hüseynova birinci yerə layiq görülüblər.



Oğlanlar arasında qaçış yarışlarında Teymur Salahzadə (200 m), Mahmud Mehdiyev (800 m) və İlham Abışov (3000 m) birinci olublar. Qızların mübarizəsində isə Lamiyə Vəliyeva (200 m), Aynur Əsədzadə (800 m) və Anna Yusupova (3000 m) fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar.

Qaliblər federasiya və Baş İdarə tərəfindən diplom və medallarla təltif olunublar.

Bu yarışlar yanvarın 24-25-də keçiriləcək atletika üzrə Azərbaycan çempionatına hazırlıq xarakteri daşıyıb.

## Yelkənçilərimiz beynəlxalq turniri qələbə ilə başa vurublar



Dörd ölkənin 14 yelkən klubundan 156 peşəkar yelkənçinin iştirak etdiyi, Türkiyə Yelkənli İdman Federasiyasının, Bodrum Bələdiyyəsinin ev sahibliyi ilə keçirilən yarış Azərbaycan yelkənçiləri üçün qələbə ilə başa çatıb. Azərbaycan, Türkiyə, Rusiya və Ukrayna yelkənçilərinin iştirakı ilə "Optimist" və "Laser 4.7", "Laser Radial" sinifləri üzrə 3 gün ərzində 8 yarış keçirilib. Yüksək dərəcə əldə etmək məqsədilə fədakarlıq nümayiş etdirən yelkənçilər qələbə uğrunda fəal mübarizə aparıblar.

Azərbaycan Yelkənli İdman Federasiyasından verilən məlumata görə, yarışda Azərbaycanı Yelkənli İdman Federasiyasının heyət rəhbəri Burcu Algon Giorgianni, "Optimist" sinfi üzrə baş məşqçi Seyhun Yıldız, "Laser" sinfi üzrə məşqçi Tuğçə Subaşı, məşqçi Anton Vilyayev, yelkənçilər Ayla Babayeva, Murad İsmayıl, İsmayıl Kərimov, Səxavət Əzimov, Fidan Ağazadə, Timur Sikaçevskiy, Murad Allahverdi, Murad Hacızadə, Bahadır Məmmədli təmsil ediblər. Yarışlarda yüksək nəticə əldə edən Azərbaycan Yelkənli İdman Federasiyasının yelkənçiləri "Laser 4.7" sinfi üzrə ilk medallarını qazanıblar.

Ayla Babayeva "Laser 4.7" sinfi üzrə qadınlar qrupunda 1-ci yerə, Murad İsmayıl "Laser 4.7" sinfi üzrə kiçik yaş qrupunda 2-ci yerə, İsmayıl Kərimov isə "Laser 4.7" sinfi üzrə ümumi nəticədə 4-cü yerə layiq görülüb.

Dünya və Avropa çempionatlarında dəfələrlə iştirak edən yelkənçilərimiz ən çətin şərtlər altında, pis hava şəraitlərində belə illərin təcrübəsinə malik peşəkar idmançılarla əzmlə mübarizə apararaq hər zaman yüksək nəticələr əldə ediblər.

Bu dəfə isə "Optimist" sinfindən sonra "Laser 4.7" sinfinə başlayan Azərbaycan Yelkənli İdman Federasiyasının yelkənçilərinin qısa müddətdə yeni sinif üzrə yüksək nəticə göstərməsi Beynəlxalq məşqçilərin də xüsusi rəğbəti ilə qarşılanıb. Bu da Azərbaycanda yelkənli idman növünün sürətlə inkişaf etməsinin göstəricisi kimi dəyərləndirilib.

Xatırladaq ki, ötən ilin fevral ayında 23 ölkədən 156 idmançının iştirak etdiyi, Omanda təşkil edilən Beynəlxalq yarışda 12 yaşlı qızlar arasında 68 nəfərin apardığı gərgin yarışda "Optimist" sinfi üzrə Azərbaycanı təmsil edən Fidan Ağazadə 3-cü yerin qalibi olmuşdu. Azərbaycan Respublikası Yelkənli İdman Federasiyasının gənc yelkənçisi Kristina Kərimova isə 2018-ci ildə Sloveniyada keçirilən "Easter Regatta" adlı beynəlxalq yarışda 139 idmançı arasından 4-cü yerdə qərarlaşaraq yüksək nəticə göstərmişdi.

Qeyd edək ki, bu ilin ilk günlərində Bodrumda yarışların keçirilməsi 2020-ci ilin mart ayında Türkiyədə təşkil olunacaq beynəlxalq yarışlara və İtaliyanın Qarda gölündə "Optimist" sinfi üzrə keçiriləcək dünya çempionatına, Portuqaliyada "Laser 4.7" sinfi üzrə keçiriləcək Avropa çempionatına, eyni zamanda, 2021-ci ildə Bodrumda "Optimist" sinfi üzrə keçirilməsi planlaşdırılan dünya çempionatına hazırlıq məqsədi daşıyırdı.

Formula 1

## Könüllülər üçün seminar təşkil olunub

Yanvarın 11-də "Bakı Şəhər Halqası" Akademiyasında könüllülər üçün "Müasir dünyada PR" mövzusunda seminar təşkil olunub. Ölkəmizdə Formula 1 yarışlarının təşkilatçısı olan "Bakı Şəhər Halqası" Əməliyyat Şirkətinin (BŞH) marketinq və kommunikasiyalar şöbəsinin rəhbəri Nigar Arpadarainin apardığı seminarda müasir dünyada PR və onun alətləri, Formula 1 Azərbaycan Qran-Prisinin PR strategiyası və bu kimi mövzular barədə məlumat verilib. Əllidən artıq könüllünün iştirak etdiyi tədbirdə N.Arpadarai seminar iştirakçılarını maraqlandıran suallara cavablandırıb. Prezident İlham Əliyevin Sərəncamı ilə 2020-ci ilin ölkəmizdə "Könüllülər ili" elan olunmasını nəzərə alan BŞH könüllülərlə tanınmış şəxslərin görüşlərini mütəmadi olaraq təşkil etməyi, onların bilik və bacarıqlarının artırılması istiqamətində müxtəlif tədbirlər həyata keçirməyi nəzərdə tutub.

## Maks Ferstappen "Red Bull Racing"lə yeni müqavilə imzalayıb

Niderlandlı pilot Maks Ferstappen "Red Bull Racing" komandası ilə müqaviləsini uzadıb.

22 yaşlı pilot ən azı 2023-cü ilədək komandanın heyətində mübarizə aparacaq.

M.Ferstappen Formula 1-ə 2015-ci il mövsümündə 15 yaşında gəlib. Pilot karyerasına Avstriya şirkətinin gənc komandası "Toro Rosso"da başlayıb. O, "Red Bull Racing" komandasını 2016-cı ildən təmsil edir.

"Red Bull Racing" komandasının heyətində 8 qələbə qazanan pilotun aktivində ümumilikdə 948 xal var. Niderlandlı pilotun 2020-ci il mövsümündə tərəf müqabili 2019-cu ilin ikinci yarısında olduğu kimi, tailandlı Aleksandr Albon olacaq.

Müsahibə

# Mariya Stadnik:
# "Azərbaycanın idman şərəfini qorumaqdan qürur duyuram

***İdman sağlamlıqdır. Peşəkar idman isə çox çətin və məsuliyyətli bir sahədir. Minlərlə insanın sənə azarkeşlik etməsi, yarışlarda doğma insan kimi narahat olması qürurvericidir. Bəzi insanlar idmanı iki hissəyə - kişilər və qadınlar üçün olan idman növlərinə ayırırlar. Kişilərə xas olan idman növləri sırasında ilk pillələrdən birində güləş yer alır. Bu çətin, fiziki güc tələb edən növə incəlik qatan qadın idmançılarımız da az deyil. Qəzetimizin budəfəki sayında üçqat Olimpiya mükafatçısı, ikiqat dünya, yeddiqat Avropa çempionu, Avropa Oyunlarının ikiqat qalibi, IV İslam Həmrəyliyi Oyunlarının qızıl medalçısı Mariya Stadniklə olan söhbətimiz yer alıb. Ümumdünya Güləş Federasiyasının versiyasına görə, planetin ən yaxşı qadın güləşçisi ilə olan səmimi müsahibəmizi oxucularımıza təqdim edirik.***

***- Mariya, əvvəlcə sizi Tokio-2020 Yay Olimpiya Oyunlarına lisenziya qazanmağınız münasibəti ilə təbrik edirik.***

- Təşəkkür edirəm. Olimpiya Oyunlarına xüsusi hazırlaşıram. Lisenziyanı Qazaxstanın Nur-Sultan şəhərində keçirilən dünya çempionatında əldə etdim. Tokioda məqsədim yalnız qızıl medal qazanmaqdır. Buna nail olmaq üçün çox çalışıram. Ümid edirəm ki, mənə inanan, azarkeşlik edən insanların etimadlarını doğrulda biləcəyəm.



***- Olimpiya Oyunlarının üçqat mükafatçısı olaraq, Tokio-2020-də uğur qazanmaq üçün nə edirsiniz?***

- Bu işdə mənə kömək edən əla komandam var. İlk növbədə hər gün məşq edirəm. Mənim şəxsi məşqçim həyat yoldaşım Andrey Stadnikdir. O, mənim aləmimdə dünyanın ən yaxşı məşqçisidir. Bizim həyatda və idmanda bir məqsədimiz var: yalnız qələbə qazanmaq. Məşqlərdə ilk olaraq, əvvəlki yarışlarda buraxdığım səhvlər üzərində çalışırıq. Hər gün mütəmadi məşq etməyimsə ən yaxşı güləşçilər sırasında olmağıma imkan verir. Əlimizdən gələni edirik ki, 4-cü olimpiadamızdan da qızıl medal ilə ayrılaq.

***- Necə alındı ki, həyat yoldaşınız sizin şəxsi məşqçiniz oldu?***

- Həyat yoldaşım Andrey Stadnik 2012-ci ildə karyerasını bitirdikdən sonra mənə şəxsi məşqçilik etməyə başlayıb. O, 2005-ci ildə Varnada Avropa çempionatının və 2006-cı ildə Quançjouda dünya çempionatının bürünc, 2009-cu ildə Vilnüsdə keçirilən Avropa çempionatının qızıl, həmçinin Pekin-2008 Yay Olimpiya Oyunlarının gümüş medalçısıdır.

***- İdmançının şəxsi məçqçisinin həyat yoldaşı olması yəqin ki, daha rahat olar. Məşq zamanı həyat yoldaşınız sizə hər hansısa güzəşt edir?***

- O, əsl peşəkardır. Ona görə də, anlayır ki, mənə xırda bir güzəşt belə etsə, mən istədiyim nəticəni əldə edə bilməyəcəyəm. Ona görə də, mənə qarşı daha tələbkardır. Andrey mənim həm məşqçim, həm də psixoloqumdur. O, mənə uğur qazanmaq üçün hərtərəfli dəstək verir.

***- Güləş idman növü ilk baxışdan qadın üçün biraz kobud görünür. Daha incə idman növləri ilə məşğul olmağı heç düşünmüsünüz?***

- Mən Ukraynanın Lvov şəhərinin Pesoçnaya kəndində dünyaya gəlmişəm. Həmin vaxt bizim kənddə yalnız rəqs və güləşlə məşğul olmaq üçün idman klubları var idi. Atam hər zaman oğlan övladı olmasını arzulasa da, dünyaya mən gəldim (gülür). Kiçik yaşlarımdan çox cəld və fiziki baxımdan güclü qız idim. Fiziki cəhətdən ağır işlərin öhdəsindən rahatlıqla gəlirdim. Buna görə də, güləş mənim xasiyyətimə tam uyğun bir idman növü oldu.

***- Belə çıxır ki, kəndinizdə güləş klubu olmasaydı, siz rəqslə məşğul olacaqdınız...***

- Daha əvvəl rəqsə marağım var idi. Buna görə də, ilk olaraq rəqs klubuna üz tutdum. Bu, məndə pis alınmırdı. Lakin tədbirlərin birində çıxışımız zamanı, müəllimim mənə ən arxa sırada yer verdi. Bu da mənim xoşuma gəlmədi və bir daha bu kluba getməyəcəyimə qərar verdim. Daha sonra həyətimizdə olan oğlan uşaqları ilə birgə qeydiyyatdan keçmək üçün güləş klubuna getdik. Orada ilk günlərdən fərqlənməyə başladım. Tapşırıqları düzgün yerinə yetirdiyim üçün müəllimlərim məni tərifləyirdilər. Təbii ki, bu, məni daha da həvəsləndirirdi.



## "İkinci planda olmağı xoşlamıram"

***- Rəqs çıxışınızda sizin son sırada dayanmanızı qəbul etməməniz hər yerdə birinci olmaq istəyiniz mənasına gəlir?***

- Düzdür. Mən kiçik yaşlarımdan hər yerdə lider olmaq istəmişəm. İkinci planda olmağı xoşlamıram. Güləş üzrə müəllimlərimin məndə bu növə daha da maraq yaratması gələcək karyeramda böyük rol oynadı. Ümumiyyətlə, düşünürəm ki, hər bir uşaq kiçik yaşlarından məhz ona uyğun yol ilə getməlidir. Bu yolu isə onlara məşqçi-müəllimləri və valideynləri göstərməlidir. Hesab edirəm ki, idmanla məşğul olan hər bir uşaq kiçik yaşlarından peşəkar müəllimin yanında dərs almalıdır.

***- Dediklərinizdən belə çıxdı ki, siz ilk məşqçinizdən çox razısınız.***

- Əlbətdə, razıyam. Güləşlə birinci sinifdə oxuyandan məşğul olmağa başlamışam. Həmin vaxt bu növlə yeni məşğul olanlara ümumi fiziki vəziyyətini yaxşılaşdırmaq üçün sadə idman hərəkətləri öyrədilirdi. Bir müddətdən sonra müəllimim məni şəhərdə yerləşən klubların birinə yolladı. Oradakı müəllimimin üzərimdə böyük əməyi, zəhməti var. Həmin məşqçimi ilk məşqçim kimi qəbul edirəm.

***- Hansı rəqibinizlə görüş sizi daha çox həyəcanlandırır?***

- Əsasən, Yaponiya təmsilçiləri ilə görüş məni daha çox həyəcanlandırır. Onlar daha cəld və gözlənilməz fəndlər edirlər. Hər an nə edəcəkləri bəlli deyil. Buna görə də, onlarla mübarizə aparanda maksimum diqqətli olmağa çalışıram.

***- Bir müddət əvvəl sizin qızınızla güləşdiyiniz barədə video yayılmışdı. Qızınızın da sizin kimi güləşçi olmasını istəyirsiniz?***

- Qızım hazırda idman gimnastikası ilə məşğul olur. Güləşlə peşəkar şəkildə məşğul olmaq onun üçün hələ tezdir. Lakin düşünürəm ki, o, gələcəkdə güləşçi ola bilər. Oğlum isə fiziki inkişafı üçün futbol və idman gimnastikası ilə məşğuldur. İdmandan əlavə o, həmçinin piano dərsləri də alır. Təbii ki, evdə hər kəsin güləşçi olması 9 yaşlı oğlum İqorda və 6 yaşlı qızım Miada bu növə xüsusi maraq yaradır. Onlar bilirlər ki, anaları Olimpiya Oyunlarına hazırlaşır və mənə bu yolda əllərindən gələn dəstəyi göstərirlər.

***- Maraqlıdır, yarışlardan əldə etdiyiniz ilk böyük məbləği hara xərcləmisiniz?***

- İlk böyük məbləği 2008-ci ildə keçirilən Olimpiya Oyunlarında əldə etdim. Bürünc mükafatçısı olduğum Oyunlardan qazandığım məbləğlə mənzil aldım.

***- Mütəmadi məşqlər, turnirlər, iki övlad, ev qayğıları bunların sizi yorduğu anlar olur?***

- Əlbəttə. Hərdən elə olur ki, insan biraz dincəlmək, ailəsi ilə istirahət etmək istəyir. Lakin mən bu işlərin öhdəsindən tək gəlmirəm. Mənə kömək edən yaxınlarım var. Düşünürəm ki, hər bir qadın daim hərəkətdə olmalıdır. Mən günümün çox hissəsini məşq zalında keçirirəm, başqa qadınlar isə işə gedir, vaxtının əsas hissəsini işdə olur. Yəni demək istəyirəm ki, qadınlar güclüdür, onlar hər bir işin öhdəsindən gələ bilirlər.

***- Məşhur idmançı kimi kifayət qədər azarkeş kütləsinə sahibsiniz. Azarkeşlərinizlə görüşlər keçirirsinizmi?***

- Bunu çox istərdim. Mənə azarkeşlik edən, mənə inanan insanlarla görüşüb, söhbət etmək çox maraqlıdır. Lakin təəssüf ki, görüşlər keçirməyə vaxtım olmur. Vaxtımı yalnız məşqlərə və ailəmə ayırıram. Ancaq imkan tapdıqca böyük məmnuniyyətlə azarkeşlərin və media nümayəndələrinin suallarını da cavablandırıram.

## "Azərbaycan Respublikasının dövlət himnini qürurla dinləyirəm"

***- Sizin inadkarlığınız, əməksevərliyiniz sayəsində Azərbaycan bayrağı bir çox mötəbər turnirlərdə dalğalanıb, himnimiz səslənib. Maraqlıdır, yarışlardan kənarda Azərbaycan himnini eşidəndə hansı hissləri keçirirsiniz?***

- Bu ölkəyə hər zaman hörmət bəsləyib minnətdar olacağam. Məhz Azərbaycan mənə inanıb, bir idmançı kimi özümü göstərməyə imkan yaratdı. Bu ölkənin dövlət himnini fəxrlə dinləyirəm. Azərbaycanın idman şərəfini qorumaqdan qürur duyuram.

***- Artıq uzun müddətdir ki, Azərbaycana gəlib-gedirsiniz. Azərbaycan dilində hansı sözləri bilirsiniz?***

- Zamanımın böyük hissəsini Ukraynada keçirdiyim üçün əsasən rus dilində ünsiyyət qururam. Təəssüf ki, Azərbaycan dilində danışa bilmirəm. Azərbayacana gəldiyimdə isə mənə rahat olsun deyə hər kəs mənimlə rus dilində danışır. Bəlkə də, "biz rus dilini bilmirik, Azərbaycan dilində danış" desələr bu dili daha tez öyrənərdim. Hələlik isə yalnız "necəsən?" və "mən səni sevirəm" sözlərini bilirəm.



***- Azərbaycan mətbəxindən hansı yeməkləri sevirsiniz?***

- Azərbaycan mətbəxi çox zəngindir. Lakin mənim ən sevdiyim təamlar şirin plov və kababdır.

***- Ailənizlə vaxt keçirməyi sevdiyinizi dediniz. Bütün ailə bir arada olanda adətən nə ilə məşğul olmağa üstünlük verirsiniz?***

- Aktiv istirahət etməyi sevirik. Yayda əsasən, təmiz havada dincəlir, təbiət qoynuna çıxıb, velosiped sürürük. Qışda isə xizək sürməyi və kinoya getməyi sevirik.

***- Hər bir insanın həyatda bir məqsədi olur. Necə düşünürsünüz, siz həyatda istədiklərinizi əldə etmisiniz?***

- Bəli. Özümü çox xoşbəxt hiss edirəm. Mənim gözəl ailəm, sağlam övladlarım var. Sevdiyim işlə məşğul olur və həyatdan zövq alıram.

***- Özünüzü təsvir edin. Necə insansınız?***

- Özümü təsvir etmək mənim üçün çətindir. Xasiyyətimi və necə insan olmağımı deyə bilmərəm. Düşünürəm ki, mənfi cəhətlərim az deyil.

***- Geridə qoyduğumuz 2019-cu ili necə xatırlayırsınız? 2020-ci ildən nə gözləyirsiniz?***

- 2019-cu il mənim üçün çox çətin bir il oldu. Lakin şükürlər olsun ki, bu il mənim üçün pozitiv notlar ilə bitdi. 2020-ci ildən yalnız ailəm və yaxınlarım üçün cansağlığı istəyirəm. Digər işlərin isə öhdəsindən gəlmək olar.

***- Müasir Azərbaycanın qadın güləşi dedikdə, insanların ağlına ilk olaraq, Mariya Stadnik adı gəlir.***

- Bunu bilmək çox xoş və qürurvericidir. Ancaq mən istəyirəm ki, məni özlərinə kumir seçən yeniyetmə qızları daha da həvəsləndirim. Onlar anlasınlar ki, güləş kişi idman növü hesab edilməsinə baxmayaraq, yaxşı həyat yoldaşı, qayğıkeş ana və gözəl qadın olmağa mane olmur.

***- Hesab etmirsiniz ki, gənc qızları bu növə həvəsləndirmək üçün müxtəlif tədbirlər keçirmək lazımdır?***

- Əlbətdə, yeniyetmələrin marağını artırmaq üçün müəyyən işlər aparılmalıdır. Məsələn mən və həyat yoldaşım İspaniyanın Alikante şəhərində



dostum Sergey Voytoviç ilə birgə "Stadnik" döyüş klubunun əsasını qoymuşuq. Andrey Stadniklə hər il orada kiçik yaşlı döyüşçülər üçün ustad dərsləri keçirik. Burada yalnız biz deyil, müxtəlif yüksək titullu güləşçilər də öz bilik və bacarıqlarını uşaqlarla bölüşürlər. 2019-cu ildə Olimpiya çempionu Anatoli Beloqlazov ilə məşqimiz olub. Ümid edirəm ki, həm vaxt, həm də təşkilatçılıq baxımından Azərbaycanda da belə ustad dərsləri keçirə biləcəyəm.

***- Karyeranızı bitirdikdən sonra məşqçi olmağı düşünürsünüzmü?***

- Hadisələri qabaqlamağı sevmirəm. Lakin düşünürəm ki, heç vaxt idmandan ayrılmayacağam. Əlbəttə, məşqçi olmaq ehtimalım böyükdür. Hazırda əsas məqsədim, bu il keçiriləcək Yay Olimpiya Oyunlarında qızıl medal qazanmaqdır.

*Türkay Niftəliyeva*



# Sumoçularımız yeni ilə 11 medalla başladı

Yanvarın 12-də Macarıstanın Erd şəhərində keçirilən sumo üzrə Avropa kubokunun birinci mərhələsinə yekun vurulub. İki gün davam edən qitə kubokunda Azərbaycanla yanaşı, Macarıstan, Rusiya, Ukrayna, Polşa, Norveç, Almaniya və İtaliyanı təmsil edən 362 idmançı mübarizə aparıb. Kadetlər, yeniyetmələr, gənclər və böyüklər arasında keçirilən yarışda komandamız Azərbaycan Sumo Federasiyasının prezidenti Samir Abdullayevin rəhbərliyi altında 11 idmançı ilə təmsil olunub.

Komandamız yeni ilin ilk sınağında uğurla çıxış edərək 3-ü qızıl, 7-i gümüş, 1-i isə bürünc olmaqla ümumilikdə 11 medal qazanıb.

Kadetlər arasında keçirilən yarışda Alim Balaşlı (55 kq) birinci, Səid Tahirov (60 kq) və Azad Cəfərov (55 kq) isə ikinci yeri tutub. Yeniyetmələrin mübarizəsində isə Əli Həsənov (60 kq) bütün rəqiblərini üstələyərək çempion adına layiq görülüb. Bu kateqoriyada çıxış edən yığma komandamızın digər üzvləri Alim Balaşlı (60 kq) və Ağamalı Abdulov (100 kq) isə yalnız finalda məğlub olaraq gümüş medallara sahib çıxıblar.

Gənclər arasında keçirilən yarışlarda isə Babək Abdullayev (60 kq) və Məhərrəm Eyvazov (70 kq) komandamıza növbəti gümüş medalları qazandırıblar.

Turnirin ən gərgin mübarizəsi şübhəsiz ki, kişilər arasında keçirilən yarışda qeydə alınıb. Bu kateqoriyada Cavid Mustafayev 77 kq çəki dərəcəsində fəxri kürsünün ən yüksək pilləsinə qalxaraq Azərbaycan himnini səsləndirməyə müvəffəq olub. Digər idmançımız Məhərrəm Eyvazov (70 kq) isə ikinci yerə layiq görülüb. Bu çəki dərəcəsində çıxış edən komandamızın digər üzvü Xəyyam Abdullayev isə üçüncü yerlə kifayətlənib.

Sumo üzrə yığmamız bu nəticə ilə ümumi komanda hesabında üçüncü yeri tutub.

Qeyd edək ki, turnirdə ölkəmizi hakim qismində Rəsul Həsənov təmsil edib. Macarıstana yollanan komandamızın tərkibində həmçinin məşqçi Ayaz Cəfərov da yer alıb.

Məlumat üçün qeyd edək ki, bu il aprelin 16-20-də ölkəmiz sumo üzrə Avropa çempionatına ev sahibliyi edəcək. Mötəbər yarışda "köhnə qitə"nin 20-dən çox ölkəsindən 300-ə yaxın idmançı paytaxtımızda qüvvəsini sınayacaq.

# "Könüllülər ili"nin elan olunması hər bir Azərbaycan gəncinin ürəyincədir

***Könüllülük öz iradəsi və sərbəst seçimi əsasında heç bir maddi xeyirə əsaslanmayan və cəmiyyətin rifahının daha da yaxşılaşdırılmasını qarşıya məqsəd qoyan sosial fəaliyyət növüdür. Könüllülər ölkəmizdə keçirilən beynəlxalq tədbirlərdə fəal iştirak edir və onların təşkilinə öz töhfələrini verirlər.***



Milli Olimpiya Komitəsi könüllülərlə əməkdaşlıq əlaqələrinə 2014-cü ildə başlayıb. Komitə Çinin Nankin şəhərində keçirilən Yeniyetmələrin II Yay Olimpiya Oyunlarına lisenziya verən atletika üzrə "Bakı 2014" Avropa təsnifatı yarışlarında könüllülərlə iş prinsipini təcrübədən keçirib və hazırlıq proqramı zamanı reallaşdırılan bu layihə çərçivəsində 1000-ə yaxın könüllü hazırlanıb. Həmin könüllülər ölkəmizin ev sahibliyi etdiyi I Avropa Oyunlarında da fəal iştirak ediblər.

Bu sözləri Milli Olimpiya Komitəsinin (MOK) Marketinq şöbəsinin əməkdaşı Ruslan Məmmədov deyib.

O bildirib ki, dünya təcrübəsində könüllülərin qüvvəsindən idman da daxil olmaqla, bütün sahələrdə istifadə edilir. XX əsrin ikinci yarısından etibarən könüllülük, həmrəylik, sosial məsuliyyət kimi ali dəyərlər sistemləşdirilərək, dünyada kütləvi bir sosial fəaliyyətə çevrilib.

İndiyədək qurumun həyata keçirdiyi layihələrdə təxminən 1500 nəfər könüllünün xidmətindən istifadə olunduğunu diqqətə çatdıran MOK-un əməkdaşı deyib: "MOK-un "Bir" Tələbə-Könüllü proqramı ilə birgə imzaladığı memorandum gənclərin könüllülük fəaliyyətinə cəlb edilməsi, onların idmana, xüsusilə də Olimpiya Hərəkatına marağının artırılması, gənclərin asudə vaxtlarının səmərəli təşkili üçün əlverişli mühitin yaradılmasına xidmət edir. Milli Olimpiya Komitəsi idmanın və Olimpiya Hərəkatının inkişafı, sağlam həyat tərzinin təbliği istiqamətində həyata keçirdiyi bütün layihələrdə könüllülərin təcrübəsindən istifadə edir. Komitə onların bilik və bacarıqlarının ortaya çıxmasına hər cür imkan və şərait yaradıb. Məsələn, MOK-un 25 illik yubiley tədbiri, II Beynəlxalq Həmrəylik Tennis Çempionatı, Olimpiya Hərəkatı Proqramı, "Bakı 2015" Avropa Oyunları, IV İslam Həmrəyliyi Oyunları və Avropa Gənclər Olimpiya Festivalı (EYOF 2019) zamanı MOK-da təşkil edilən "Zəfər günləri"ndə könüllülər fəal iştirak ediblər.

Birinci Avropa Oyunları ilə əlaqədar keçirilən mükafatlandırma mərasimində könüllülərin işinə yüksək qiymət verən Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev deyib: "Könüllülərin fəaliyyətini xüsusilə qeyd etmək istəyirəm. Oyunların keçirilməsinin yükünün böyük hissəsi onların üzərinə düşmüşdür. Könüllülər bir daha onu göstərdi ki, ölkəmizin çox böyük potensialı, insan kapitalı var. Mən 2003-cü ildə Prezident kimi fəaliyyətə təzə başlayanda demişdim ki, bizim əsas vəzifəmiz iqtisadi kapitalı, daha doğrusu, "qara qızıl"ı insan kapitalına çevirməkdir. Bugünkü gənclər müstəqillik dövründə böyümüş, tərbiyə almış gənclər bizim üçün qürur mənbəyidir".

"Son illərdə ölkəmizin ev sahibliyi etdiyi mötəbər və irimiqyaslı tədbirlərə on minlərlə könüllü cəlb olunması yaxşı ənənənin əsasını qoymuş oldu. Bu tədbirlərin keçirilməsi nəticəsində Azərbaycanın beynəlxalq miqyasa çıxarılacaq böyük potensiala malik, eyni zamanda, təcrübəli könüllü bazası formalaşdı. Prezident İlham Əliyevin Sərəncamı ilə bu ilin "Könüllülər ili" elan olunması mütərəqqi hadisədir və hər bir Azərbaycan gəncinin ürəyincədir. Dövlətimizin başçısının bu Sərəncamı gənclərin böyük potensialını üzə çıxaracaq və onların qüvvəsindən dövlətimizin, xalqımızın rifahı naminə istifadə olunacaq", - deyə R.Məmmədov vurğulayıb.

# "Uzaq sahillərdə" sınaqdan keçən şuşalı ağırlıqqaldıran



Hacı Zakir Kazımov 1931-ci il mayın 9-da qədim Şuşa şəhərində anadan olub. O, böyüyüb yetkin yaşa dolduqca şəhər cavanları arasında həmişə gücünə, qüvvəsinə və bacarıq keyfiyyətlərinə görə onlardan fərqlənirdi. Ulu Tanrı Hacı Zakirdən qüvvə və enerjisini əsirgəməyib. Onun ən böyük silahı və yarağı qolunun gücü olub. Adətən, Şuşada və Xankəndində idman yarışları vaxtı ermənilərlə şuşalı cavanlar arasında tez-tez mübahisələr baş verirdi. Mübahisələrin sonu dava-dalaşla nəticələnirdi. Əlbəttə, həmin vaxt Zakir orada idisə, həmin mübahisələr şuşalıların xeyirinə həll olardı.

Zakir Kazımov 1949-cu ildə orta məktəbi bitirdikdən sonra hərbi xidmətə çağırılır. 1951-ci ildə hərbi xidmətini başa vuraraq ordu sıralarından qayıdır. Bakının yay axşamlarının bir günü hərbi geyimdə dənizkənarı parkda gəzərkən Zakirin diqqətini putluq, daş və ağırlıqqaldıranlar cəlb edir. Zakir bir qədər ağırlıqqaldıranlara tamaşa etdikdən sonra könüllü surətdə bu yarışa qoşulur. Zakir putluq daşları və ştanqı qaldırmaqla ətrafdakıların diqqətini cəlb edir. O, yarışı keçirən Azərbaycanın məşhur ağırlıqqaldıranı Hacıbaba Əsgərovun da diqqətini cəlb edir. Hacıbaba müəllim Zakirlə söhbət edir və onu başa salır ki, əgər ağırlıqqaldırma ilə məşğul olsan, gələcəkdə məşhur idmançı ola bilərsən. Zakir Kazımov Hacıbaba müəllimin məsləhətinə qulaq asır və ertəsi gün Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutuna gedir. Zakir Kazımov institutun rəhbər işçiləri ilə söhbət etdikdən sonra onu tələbələr sırasına daxil edirlər. Artıq qayğılı tələbəlik illəri və gərgin məşqlər başlayır. Zakir məşqçi Hacıbaba Əsgərovun rəhbərliyi altında məşqlərdə iştirak edir. Görünür, həmin vaxtlarda Hacıbaba müəllim yanılmamışdı. Zakir tez bir vaxtda ağırlıqqaldırma idman növünün sirlərinə yiyələnir və güclü bir idmançıya çevrilir. O, ağırlıqqaldırma üzrə respublika miqyaslı yarışlarda çıxış edərək, mükafatçılar sırasında yer alır. Tezliklə şuşalı idmançı Azərbaycanın yığma komandasının tərkibinə daxil olur və respublikanın hüdudlarından kənarda ölkəmizin idman şərəfini layiqincə qoruyur. Zakir Kazımovun 1952-1955-ci illərdə yarışlardakı çıxışları lentə alınıb, kinojurnallarda da nümayiş etdirilib. Eyni zamanda Azərbaycanın məşhur kinorejissoru Tofiq Tağızadə "Uzaq sahillərdə" filmini çəkəndə cəsur, qüvvətli və bacarıqlı idmançılar da axtarıb və sınaq çəkilişlərinə dəvət edib. Həmin sınaq çəkilişlərində Zakir də iştirak edib.

Zakir Kazımov 1955-ci ildə institutu bitirib, təyinatını Şuşa şəhər Pedaqoji məktəbinə alır. O, burada az müddət işləsə də öz layiqli işi ilə tezliklə böyük şöhrət qazanır. Zakir Kazımovun hazırladığı Şuşa yığma komandasının ağırlıqqaldıranları Dağlıq Qarabağ Muxtar Vilayətinin birinciliyinin və kubokunun sahibi olurlar. Zakir Kazımov respublika yığma komandasının üzvü olduğu üçün Bakıya dəvət olunur. O, həmin vaxtdan Bakı Dövlət Texniki Universitetinin bədən tərbiyəsi kafedrasında müəllim vəzifəsinə təyin olunur. Az sonra baş müəllim və 1988-ci ildən dosent vəzifəsini daşıyır. Hacı Zakir kafedra müəllimləri arasında öz işgüzarlığı və pedaqoji davranışı ilə fərqləndiyi üçün 1963-cü ildən 1974-cü ilə qədər universitetin Nabranda yerləşən idman-sağlamlıq düşərgəsinin rəisi vəzifəsində çalışır.

Zakir Kazımov işlədiyi dövrdə bir sıra dərslik və metodik vəsaitlərin müəllifi olub. Zakir Kazımovun öz təşəbbüsü ilə Texniki Universitetdə təşkil etdiyi tennis zalı Bakı şəhərində ən yaxşılardan biri seçilib. İstənilən idman növü üzrə yüksək səviyyəli atlet yetişdirmək üçün hərtərəfli şəraitə malik olub. Onun yetirmələri respublika yarışlarında və irimiqyaslı turnirlərdə, Avropa və dünyanın müxtəlif şəhərlərində keçirilmiş yarışlarda qızıl, gümüş və bürünc medallara layiq görülüblər.

Zakir Kazımovun gördüyü işlər dövlətimiz tərəfindən unudulmayıb. Onun idman sahəsindəki yorulmaz fəaliyyəti layiqli fəxri adlarla mükafatlandırılıb. Belə ki, 1963-cü ildə ağırlıqqaldırma üzrə respublika dərəcəli hakim, 1973-cü ildə ümumittifaq dərəcəli hakim, 1987-ci ildə Beynəlxalq dərəcəli hakim, 1991-ci ildə ümumittifaq bədən tərbiyəsi və idman əlaçısı, 1992-ci ildə Azərbaycanın Əməkdar məşqçisi, 1998-ci ildə Azərbaycan Respublikasının Fəxri Bədən Tərbiyəsi və İdman işçisi adına layiq görülüb. Zakir müəllim həmçinin Azərbaycan Ağır Atletika Federasiyasının veteranlar şurasının sədri və həmin şuranın üzvü olub. Zakir Kazımov Beynəlxalq dərəcəli hakim kimi Polşa, keçmiş Çexoslavakiya, İran, Türkiyə və Yunanıstanda hakimlik edib.

Hacı Zakir Kazımov uzun sürən ağır xəstəlikdən sonra 2008-ci il aprelin 7-də Bakıda vəfat edib.

Onun əziz xatirəsi idman ictimaiyyətinin və şuşalıların qəlbində həmişə yaşayacaqdır.

***Əbülqasım Novruzov,***
***Şuşa Uşaq Gənclər İdman-Şahmat Məktəbinin direktoru***

# "Bosphorus Cup" turnirində uğurlu çıxış

İstanbulda beynəlxalq "Bosphorus Cup" turnirində çıxış edən Azərbaycan karateçiləri ənənəvi yarışı 21 medalla başa vurublar.

Mükafatlardan 5-i qızıl, bir o qədəri gümüş, 11-i isə bürünc medaldır. Milli komandanın məşqçiləri Şahin Xudaverdiyev (kumite) və Anar Əhmədovun (kata) rəhbərliyi ilə tatamiyə çıxan idmançılarımızdan qızıl medalları Rafael Məmmədov (52-60 yaşlı veteranlar, kata), Samir Məmmədov (75 kq), Mədinə Sadıqova (21 yaşadək gənclər, 60 kq), Eldar Əhmədov və Sahib Əhədov (parakarate) qazanıblar. Gümüş medallara Qasım İskəndərov (75 kq), Elvin Ağayev (84 kq-dan yuxarı), Fərid Savadov (16-17 yaşlı gənclər, 55 kq), Soltan Allahquliyev (13 yaşlı uşaqlar, 45 kq) və Ülvi Zeynalov (parakarate) layiq görülüblər.

Məhəmməd İsmayılov (67 kq), Fərid Şahbazlı (75 kq), Ceyhun İsmayılov (kata), Renata Ərəbli (61 kq), Novruz Əliyev (84 kq), Kəmalə Hüseynova (68 kq-dan yuxarı), Qasım İsgəndərov (21 yaşadək gənclər, 78 kq), Xəyal Məmmədov və Ceyhun İsmayılov (21 yaşadək gənclər, kata), həmçinin İnci Əzizova (21 yaşadək gənclər, 60 kq) və Adil Əlyar (parakarate) yarışı üçüncü pillədə başa vurublar.

Ümumi hesabda milli komandanın və müxtəlif klubların üzvlərindən ibarət Azərbaycan karateçiləri türkiyəli idmançılardan sonra ikinci nəticə göstəriblər.

## *Bakı karate üzrə xatirə turnirinə hazırlaşır*

Yanvarın 17-də "Arpaçay" karate klubu və Azərbaycan Milli Karate Federasiyasının (AMKF) birgə təşkilatçılığı ilə 20 Yanvar şəhidlərinin xatirəsinə karate üzrə ənənəvi beynəlxalq turniri start götürəcək.

5-ci "Arpaçay Open" turnirində 10-dan artıq ölkədən 1000-dək idmançının iştirakı gözlənilir.

Bakı İdman Sarayında təşkil ediləcək yarış yanvarın 19-da başa çatacaq.

# Dekabr

## Ayın yekunu Olimpiya dünyası nın təqdimatında

### Gimnastika

Rusiyanın Obninsk şəhərində idman gimnastikası üzrə Larisa Latinina adına beynəlxalq turnir keçirilib. Gimnastlarımızdan Səməd Məmmədli halqalar və turnikdə bütün rəqiblərini üstələyərək birinci olub. O, dayaqlı tullanma alətində çıxışına görə üçüncü yerdə qərarlaşıb. Gənclər arasında çıxış edən daha bir gimnastımız Rəsul Əhmədzadə isə sərbəst hərəkətlərdə üçüncü olub. Böyüklərin yarışında çıxış edən Cavidan Babayev halqalarda ikinci, sərbəst hərəkətlərdə isə üçüncü pillədə qərarlaşıb. Digər idmançımız Sərvər Əliyev isə paralel qollarda çıxışına görə bürünc medal qazanıb. Gimnastlarımız komanda hesabında üçüncü pillədə yer alıblar.

### Cüdo

Çinin Cindao şəhərində cüdo üzrə “Masters” turniri keçirilib. Mötəbər turnirdə 67 ölkədən 445 cüdoçu mübarizə aparıb. Ölkəmiz yarışda 11 (8 kişi, 3 qadın) cüdoçu ilə təmsil olunub. Komandamız ilin son beynəlxalq yarışını 1 gümüş və 1 bürünc medalla başa vurub. Millimizə gümüş medalı +78 kq çəki dərəcəsində çıxış edən xanım idmançımız İrina Kindzerskaya qazandırıb. Komandamızın aktivinə bürünc medalı isə Olimpiya mükafatçımız Rüstəm Orucov (73 kq) yazdırıb.

* * *

Rusiyanın Sosnovıy-Bor şəhərində cüdo üzrə ənənəvi beynəlxalq turnir keçirilib. 27-ci dəfə təşkil olunan yarışda Almaniya, Rusiya, Yunanıstan, Gürcüstan, Belarus cüdoçuları ilə yanaşı, Azərbaycanın yeniyetmələrdən ibarət komandası da mübarizə aparıb. İdmançılarımız komanda yarışında Gürcüstan, Moskva, Leninqrad vilayətinin komandalarını məğlub edərək finala çıxıblar. Həlledici görüşdə Krasnodar komandasına uduzan cüdoçularımız beynəlxalq turnirin gümüş medalı ilə kifayətləniblər. Turnirin fərdi yarışlarında cüdoçularımızdan Aydın Rzayev (60 kq) qızıl, Emin Həsənov (46 kq) gümüş və Süleyman Əliyev (66 kq) isə bürünc medal qazanıblar.

### Güləş

Dağıstanın Qarabudaqkənd rayonunda Olimpiya çempionu Məhəmməd-Həsən Abuşevin şərəfinə sərbəst güləş üzrə açıq turnir keçirilib. 23 yaşadək güləşçilər arasında keçirilən yarışda Olimpiya çəki dərəcələri üzrə mübarizə başa tutub. Turnirdə Davud İbrahimov (65 kq) bütün rəqiblərinə qalib gəlib. Saqadulla Ağayev (86 kq) gümüş, Şahin Muxtarov (57 kq), Aydın Əhmədov və İslam Abuyev (hər ikisi 125 kq) isə bürünc medal qazanıblar.

### Karate

İtaliyanın Venesiya şəhərində gənclər arasında “Karate 1” Premyer Liqa turniri keçirilib. Dünyanın 65 ölkəsindən 3180 karateçinin mübarizə apardığı yarışda Azərbaycan idmançıları da qüvvələrini sınayıblar. Yarışda 14-15 yaşlı yeniyetmələr və 16-17 yaşlı gənclərdən ibarət yığmamız mübarizə aparıb. Komandamız nüfuzlu turnirdə 4 medal qazanıb. 16-17 yaşlı idmançıların yarışında təmsilçilərimizdən Polina Qurenko (53 kq) və Ramil Baxşəliyev (55 kq) turnirin gümüş, Əminağa Quliyev (61 kq) isə bürünc medallarına sahib çıxıblar. Digər karateçimiz Arina Bezrebra (+54 kq) və Tarmenxan Babayev (96 kq) isə 14-15 yaşlı yeniyetmələrin yarışında bürünc medala layiq görülüb.

### Taekvondo

Moskvada taekvondo üzrə Qran-Pri turniri keçirilib. Yarışda iştirak edən Azərbaycanın üç taekvondoçusundan ikisi medal qazanıb. 80 kq çəki dərəcəsində mübarizə aparan Milad Beigi Hərçəqani turniri gümüş medalla başa vurub. Radik İsayev (80 kq yuxarı) isə bürünc medalla kifayətlənib. Digər idmançımız Cavad Ağayev (68 kq) ilk döyüşündə britaniyalı Bredli Sindenə məğlub olaraq yarışı erkən dayandırıb.

* * *

Almaniyada uşaq taekvondoçular arasında keçirilən Avropa birinciliyinə keçirilib. Yarışda 10 idmançı ilə mübarizə aparan idmançılarımız 7 medala sahib olublar. Turnirin birinci günündə Mehdi Budaqlı (27 kq) qızıl medala, Aydın Süleymanov (32 kq), Mürşüd Qasımov (39 kq), Tamerlan Yaqubov (29 kq) gümüş, Fərdi Quşxani (35 kq) isə bürünc medallara sahib olublar. Yarışın ikinci günündə Elmira Bayrak (22 kq) və Süleyman Həsənov (24 kq) bürünc medal qazanıblar.

### Ağırlıqqaldırma

İsrailin Eylat şəhərində 15 və 17 yaşadək yeniyetmələr arasında ağırlıqqaldırma üzrə Avropa birinciliyi keçirilib. 37 ölkədən 498 idmançının (228 qız və 270 oğlan) iştirak etdiyi çempionatda Azərbaycan yığmasının üzvləri 9 medal - 2 qızıl, 3 gümüş və 4 bürünc qazanıblar. Birincilikdə 15 yaşadək qızların yarışında Rahilə Hüseynova (76 kq) təkanla qaldırmada gümüş, ümumilikdə bürünc medal qazanıb. Eyni yaş kateqoriyasında oğlanların mübarizəsində Elşən Məmmədov (61 kq) birdənqaldırma hərəkətində gümüş, təkanla qaldırmada bürünc medal qazanıb. Nurlan Məmmədzadə (73 kq) təkanla qaldırmada qızıl, ümumilikdə gümüş medala sahib olub. Eləcə də 17 yaşadək oğlanların yarışında Rüstəm Qasımov (67 kq) və Tarmenxan Babayev (96 kq) təkanla qaldırmada bürünc medallara layiq görülüblər.

Elşən Məmmədov iki hərəkətin cəmində, Nurlan Məmmədzadə isə təkanla qaldırmada yeni Avropa rekordu müəyyən ediblər.

Atletlərin fərdi mübarizəsində də Elşən Məmmədov fərqlənib. O, 15 yaşadək oğlanların mütləq birinciliyində Sinkleyr cədvəli üzrə 341,1 xalla Avropanın ən yaxşı atleti sıralamasında yeddinci yerdə qərarlaşıb. Komanda hesabında isə 17 yaşadək atletlərimiz 558 xalla dördüncü yeri tutublar.

* * *

Azərbaycan ağırlıqqaldıranı Boyanka Kostova VI Qətər Beynəlxalq Kubokunun qalibi olub. Tokio-2020 Yay Olimpiya Oyunlarına lisenziya xarakterli yarışda 59 kiloqram çəki dərəcəsində mübarizə aparan yığmamızın üzvü iki hərəktin cəmində 221 kiloqram (101 kq+120 kq) nəticə ilə bütün rəqiblərini qabaqlayıb.









### Şahmat

Estoniyanın paytaxtı Tallinndə rapid üzrə Avropa çempionatı keçirilib. İki gün davam edən turnirdə 34 ölkədən 474 şahmatçı iştirak edib. Ölkəmizi qitə çempionatında təmsil edən Rauf Məmmədov 10,5 xal toplayaraq gümüş medal qazanıb. Digər şahmatçımız Qədir Hüseynov isə 10 xalla 7-ci sırada qərarlaşıb.

* * *

İspaniyanın Sityes şəhərində keçirilən şahmat festivalında təmsilçimiz Vasif Durarbəyli uğurla çıxış edib. Yarışın A qrupunda mübarizə aparan şahmatçımız 8 xalla ikinci yeri tutub. Turnirin qalibi 8,5 xalla ukraynalı Anton Korobov olub.

### Kəmər güləşi

Qazaxıstanın paytaxtı Nur-Sultanda kəmər güləşi üzrə dünya çempionatı keçirilib. Çempionatda 30 ölkədən 200 idmançı mübarizə aparıb. Çempionatda +100 kq çəki dərəcəsində yarışan Camal Feyziyev bütün rəqiblərinə qalib gələrək dünya çempionu adına layiq görülüb.

### MMA

Ötən ay MMA üzrə ən nüfuzlu turnirlərdən olan “Rizin Gran Prix 2019”un final döyüşü keçirilib. Yaponiyada turnirin final mərhələsi çərçivəsində həmyerlimiz Tofiq Musayev və braziliyalı Patrik Freire üz-üzə gəlib. Hakimlərin yekdil qərarına əsasən Tofiq Musayev hər üç raundda rəqibindən üstün olub. Beləliklə, Tofiq “Rizin Gran Prix 2019” turnirinin qalibi elan edilib.

### Budo

Bakı İdman Sarayında budo döyüş növləri üzrə V dünya kuboku turniri keçirilib. Gənclər və İdman Nazirliyi, Dünya Budo Döyüş Növləri Federasiyası və Azərbaycan Budo Döyüş Növləri Federasiyasının (ABDNF) birgə təşəbbüsü ilə keçirilən turnirdə Azərbaycan, Pakistan, İraq, Əfqanıstan, İran, Gürcüstan, Özbəkistan, Türkiyə, Kipr, Rusiya, Banqladeş və Hindistandan olan 900-ə yaxın idmançı çıxış edib. Turnir semi-kontakt, ful-kontakt, fri-kontakt, layt-kontakt, sabaki-citsu, submission, B-1, F-1 və S-1 qaydaları üzrə keçirilib. Yarışda Azərbaycan komandası ən çox medal qazanaraq fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. İran komandası ikinci, Türkiyə isə üçüncü olub. Kata yarışlarında isə Kipr idmançıları bütün rəqiblərini qabaqlayaraq birinci pillədə qərarlaşıblar. Azərbaycan idmançıları gümüş, İran təmsilçiləri isə bürünc medalla kifayətləniblər. Nümunəvi çıxışlarda isə İran milli komandası qızıl medal qazanıb. Azərbaycan milli komandası gümüş, Ukrayna isə bürünc medala layiq görülüb.

### Ciu-citsu

Avrasiya Kombat Ciu-Citsu Federasiyasının təşkilatçılığı ilə Daxili İşlər Nazirliyinin İdman Cəmiyyətinin zalında beynəlxalq turnir keçirilib. “Avrasiya Kuboku” adı altında keçirilən yarışda Azərbaycan, Rusiya, İran, Belarus və Gürcüstandan olan idmançılar güclərini sınayıblar. 100-dən çox idmançının iştirak etdiyi və beynəlxalq qaydalar əsasında təşkil olunan turnir ful-kontakt və klouz-kontakt versiyaları üzrə uşaqlar, yeniyetmə və gənclər arasında müxtəlif çəki dərəcələrində keçirilib. Turnirdə medal sayına görə Azərbaycan komandası birinci yeri tutub. Belarus yığması ikinci, Gürcüstan isə üçüncü pillədə qərarlaşıb.

* * *

Qazaxıstanın Almatı şəhərində kombat ciu-citsu idman növü üzrə beynəlxalq turnir keçirilib. Ölkəmizi bu turnirdə Daxili İşlər Nazirliyinin İdman Cəmiyyətinin 3 idmançısı təmsil edib. Yarışda 12-13 yaş kateqoriyasında Eyyub Əkbərov (60 kq), 16-17 yaş kateqoriyasında isə Esmira Məmmədova (65 kq) bütün rəqiblərini məğlub edərək fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar. Medal hesabına görə birinci pillədə Qazaxıstan, ikinci yerdə Özbəkistan və üçüncü pillədə isə Azərbaycan komandası qərarlaşıb.

### Badminton

Milanda badminton üzrə “Italian International 2019” turniri keçirilib. Kişi badmintonçuların şəxsi yarışında ölkəmizi Edi Reski Dviçayo təmsil edib. 1/4 finala qədər uğurla irəliləyən idmançımız Fransa badmintonçusu Lukas Korvi ilə qarşılaşmada ayağındakı ağrılar səbəbindən görüşü davam etdirə bilməyib. Buna baxmayaraq, E.Dviçayo Milanda keçirilən beynəlxalq turnirdə aktivinə 2200 reytinq xalı yazdırıb.

### Muay-tay

Azərbaycan idmançıları Antalyada keçirilən muay-tay üzrə Avropa kuboku turnirində 10 medal qazanıblar. Turnirdə İzzət Həsənov (36 kq), Səlahəddin Qocazadə (38 kq), Əvəz Allahverdiyev (48 kq), Rəvan Abdullayev (51 kq), Murad Səfərəliyev (54 kq) və Məhəmmədəli Abdullayev (57 kq) bütün rəqiblərini məğlub edərək fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar. Nihad Şoranov (36 kq) isə finalda uduzaraq gümüş medalla kifayətlənib. Arif Əliyev (38 kq), Emil Məmmədəliyev (40 kq) və Nemət Rəhmətullayev (81 kq) isə yarışda üçüncü olublar.

### Futbol

UEFA Avropa Liqasının 2019-2020-ci illər mövsümünün qrup mərhələsinin altıncı turu çərçivəsində “Qarabağ” Tofiq Bəhramov adına Respublika Stadionunda Lüksemburqun “Düdelanj” klubunu qəbul edib. Görüş 1:1 hesabı ilə başa çatıb. Beləliklə, “Qarabağ” qrup mərhələsini 5 xalla üçüncü yerdə başa vurub.

### Pouerliftinq

Rusiyanın paytaxtı Moskvada pouerliftinq üzrə dünya çempionatı keçirilib. Azərbaycan idmançıları yarışda uğurla çıxış ediblər. 75 kq çəki dərəcəsində mübarizə aparan Rövşən Xəlilov iki qızıl və bir gümüş medal qazanıb. Bundan başqa, idmançılarımız Ədilə Qurbanova, Elvin Müzəffərov (hər ikisi -67,5 kiloqram), Ramil Əhmədov (-90 kiloqram), Nicat Xosrovzadə (hər ikisi -125 kiloqram) qızıl medal qazanıblar. Ramin Rzayev (-75 kq), Əli Əsgərov (-82 kq), Hafiz Verdiyev (-100 kq) və Aydın Hümbətov (-110 kq) gümüş medala yiyələniblər.

Qeyd edək ki, bu yarışda Razim Hüseynov da 960 kq nəticə ilə dünya rekorduna imza atıb.

# F U T B O L




## "Neftçi" Ələkbər Məmmədovun xatirəsinə həsr olunmuş beynəlxalq turnirin qalibi oldu



***Yanvarın 9-12-də "Amasiya" İdman Kompleksində Əməkdar məşqçi, 1960-cı illərin Avropa çempionu, Sovetlər İttifaqının futbol üzrə dördqat çempionu Ələkbər Məmmədovun xatirəsinə həsr olunmuş futbol üzrə beynəlxalq turnir keçirilib. 2010-2011-ci illər təvəllüdlü idmançılar arasında keçirilən yarış İUGOEM-in təşkilatçılığı, Gənclər və İdman Nazirliyi və Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının (AFFA) birgə dəstəyi ilə təşkil olunub.***

Yarışın keçirilməsində əsas məqsəd sağlam gənc nəslin yetişdirilməsi, uşaqlar arasında futbol idman növünün təbliği, kütləviliyin artırılması, gənc nəslə futbolun metodiki və texniki qaydalarının öyrədilməsi, həmçinin uşaqları futbol ilə müntəzəm məşğul olmağa cəlb etməkdən ibarət olub.

8 komandanın iştirak etdiyi yarış iki qrup üzrə keçirilib. 1-ci qrupda "Qarabağ", "Dərbənd" (Rusiya), "Sərhədçi" və "Zirvə", 2-ci qrupda isə "Ərdəbil" (İran), "Neftçi", Respublika Olimpiya Futbol Məktəbi (ROFM) və "Amasiya" klubları yer alıb. Yarışın qaydalarına görə qrupun qalibləri final görüşündə üz-üzə gəliblər. Qrupda ikinci yeri tutan komandalar isə bürünc medallar uğrunda mübarizə aparıb. Üçüncü yer uğrunda keçirilən görüşdə "Sərhədçi" komandası "Amasiya"nı 4:1 hesabı ilə məğlub edərək bürünc medallara sahib çıxıb. Turnirin finalında isə "Neftçi" ilə "Qarabağ" futbolçuları qarşılaşıb. Gərgin idman mübarizəsi şəraitində keçən yarışda rəqibinə 5:3 hesabı ilə qalib gələn "Neftçi" çempion adına layiq görülüb. Turnirin qalibi diplom, medal və kuboklarla mükafatlandırılıb. Növbəti yerləri tutan komandalar isə diplom və medallarla təltif olunublar.

Yarışda, həmçinin müxtəlif nominasiyalar üzrə ən yaxşı idmançılar da mükafatlandırılıblar. Belə ki, turnirin ən yaxşı qapıçısı Aleksandr Estrof ("Sərhədçi"), ən yaxşı müdafiəçi Amir Məmmədov ("Qarabağ") və ən yaxşı hücumçu nominasiyasında isə Ömər Fətəliyev (ROFM) fəxri fərmanla təltif olunub. Çempionatın bombardiri isə "Neftçi" klubunun üzvü Yusif Quliyev seçilib. Bundan başqa yarışa dəvət alan İranın "Ərdəbil" komandası isə turnirin ən texnikalı komandası seçilib.

Turnirin bağlanış mərasimində Gənclər və İdman Nazirliyinin futbol şöbəsinin aparıcı məsləhətçisi Əliniyaz Mirzəyev, Regional Futbol Federasiyanın nümayəndəsi Fizuli Nəcəfov, Futbol vetaranları şurasının sədri Oktay Abdullayev, Tovuzun "Turan" klubunun keçmiş prezidenti Vidadi Əhmədov, veteran futbolçular Asim Xudiyev, Asif Əliyev, Nurəddin Əliyev, Cahangir Həsənzadə iştirak ediblər.

Bağlanış mərsimində çıxış edən Əliniyaz Mirzəyev, Vidadi Əhmədov və Oktay Abdullayev Əməkdar məşqçi Ələkbər Məmmədovun zəngin karyerasından və onun Azərbaycan futbolunun inkişafındakı xidmətlərindən danışıblar. Beynəlxalq turnirin bundan sonra da ənənəvi olaraq keçiriləcəyi qeyd olunub.

## AFFA-nın yeni Nizamnaməsi qəbul olunub

Bakıda AFFA-nın növbədənkənar konfransı keçirilib. AFFA-nın prezidenti Rövnəq Abdullayev tədbirdə çıxış edərək konfransın işinə uğurlar arzulayıb. Assosiasiyanın baş katibi Elxan Məmmədov yetərsayın olduğunu və konfransın qərar qəbul etmək səlahiyyətinə malik olduğunu bildirib.

AFFA-nın hüquq şöbəsinin rəhbəri Günay Zamanlı gündəlikdə yer alan "AFFA-nın Nizamnaməsinə əlavə və dəyişikliklərlə bağlı təkliflər" barədə ətraflı məlumat verib.

Qurumun İcraiyyə Komitəsinin üzvü Firudin Qurbanov məsələ ilə bağlı təkliflərini səsləndirib.

Sonra məsələ səsə qoyulub və AFFA-nın Nizamnaməsinə əlavə və dəyişikliklərin edilməsi yekdilliklə qəbul olunub.

Növbədənkənar konfrans başa çatdıqdan sonra AFFA İcraiyyə Komitəsinin iclası, ardınca isə baş katib E.Məmmədov və AFFA-nın hüquq şöbəsinin rəhbəri G.Zamanlının iştirakı ilə mətbuat konfransı keçirilib.

## *Azərbaycan millisinin üzvü karyerasını İspaniyada davam etdirəcək*

Futzal üzrə Azərbaycan milli komandasının üzvü özünə yeni komanda tapıb. Söhbət Rafael Vileladan gedir. Hücumçu karyerasını İspaniyanın "Palma" komandasında davam etdirəcək. Onunla mövsümün sonunadək müqavilə imzalanacaq. "Palma" komandası cari İspaniya çempionatında 16 turdan sonra 32 xalla 4-cü pillədə qərarlaşıb. Komanda liderdən 6, ikinci və üçüncü pillədə yer alan rəqiblərindən isə müvafiq olaraq 3 və 2 xal geri qalır.




Qeyd edək ki, Rafael Vilela 2017-ci ildə İranın İsfahan şəhərində təşkil olunmuş beynəlxalq turnirdə millimizin heyətində çıxış edib. O, Rusiya, Qazaxıstan və İranla matçların hər birində 1 dəfə fərqlənməklə yanaşı, göstərdiyi keyfiyyətli oyunla diqqəti cəlb edib. Bundan başqa, Vilela Azərbaycan çempionatının Yüksək Liqasının 2017/2018-ci il mövsümünün tən yarısını "Araz"ın heyətində keçirib, o vaxtkı adı ilə UEFA kubokunda iştirak edib.

## Soyuq qışda yerini dəyişən futbolçular

Yeni ilin gəlişi ilə idman aləmində də yeni bir təqvim açıldı. İdman aləmindən söz düşmüşkən, ən maraqlı hadisələr məhz futbolda baş verir. Ən diqqətçəkən xəbərlərdə futbolla bağlı olur. Azarkeşlərin səbrsizliklə gözlədiyi idman hadisələrindən biri təbii ki, yanvar ayında açılan qış transfer pəncərəsidir. Qəbul olunmuş qaydalara əsasən ayrı-ayrı futbol çempionatlarında iştirak edən komandalar yaranmış fasilədən istifadə edərək, öz heyətlərini gücləndirməyə çalışırlar. Artıq qitənin ən güclü klubları öz skaut və agentlərini səfər ediblər. Məqsəd yeni ildə daha güclü heyəti formalaşdırmaq və futbolçu satışından yüksək gəlir götürməkdən ibarətdir. "Olimpiya dünyası" çoxsaylı oxucularının müraciətini nəzərə alaraq, bu saydan etibarən aparıcı klubların transfer etdiyi futbolçuların siyahısını təqdim edəcək. Bu təqdimat təkcə qış transfer pəncərəsinin bağlanması ilə bitməyəcək. Çalışacağıq ki, oxucularımıza vaxtaşırı futbolçu transferləri bağlı xəbərləri təqdim edək.

Qeyd edək ki, hazırda pəncərənin açılmasından daha çox İtaliya və Almaniya klubları yararlanmağa çalışır. Fasiləsiz davam edən İngiltərə premyer liqası da digərlərindən geri qalmır. İspaniyanın aparıcı klubları isə azarkeşlər üçün yeni sürprizlərə hazırlaşır. Qış transfer pəncərəsinin açıldığı vaxtdan etibarən yerləri dəyişən futbolçuları sizə təqdim edirik.







| *Adı Soyadı* | *Mövqe* | *Yaş* | *Qiyməti* | *Ölkə* | *Əvvəlki klubu* | *Hazırki klubu* | *Müqavilə qiyməti* |
|---|---|---|---|---|---|---|---|
| Erlinq Haaland | hücumçu | 19 | 45 mln | Norveç | Zalsburq | Dortmund | 20 mln |
| Deyan Kulusevski | y/m | 19 | 25 mln | İsveç/ Ş.Makedoniya | Atalanta | Yuventus | 35 mln |
| Ezekel Palasios | y/m | 21 | 25 mln | Argentina | River Pleyt | Bayer | 17 mln |
| Yulian Vayql | y/m | 24 | 23 mln | Almaniya | Dortmund | Benfika | 20 mln |
| Joao Pedro | h | 18 | 20 mln | Braziliya | Fluminense | Uotford | 4 mln |
| Karles Aleyna | y/m | 22 | 20 mln | İspaniya | Barselona | Betis | icarə |
| Takumi Minamino | y/m | 24 | 12,50 mln | Yaponiya | Zalsburq | Liverpul | 10 mln |
| Munas Dabbur | h | 27 | 10 mln | İsrail | Sevilya | Hoffenhaym | 12 mln |
| Strahinya Pavloviç | m | 18 | 8 mln | Serbiya | Partizan | Monako | 10 mln |
| Mario Mandzukiç | h | 33 | 10 mln | Xorvatiya | Yuventus | Əl Duhail | sərbəst agent |
| Santyaqo Askasibar | y/m | 22 | 10 mln | Argentina | Ştutqart | Herta | 10 mln |
| Mattia Perin | q | 27 | 10 mln | İtaliya | Yuventus | Cenoa | icarə |
| Henri Onyekuru | y/m | 22 | 10 mln | Nigeriya | Monako | Qalatasaray | icarə 750 min |
| Marselo Saraççi | m | 21 | 10 mln | Uruqvay | Leyptsiq | Qalatasaray | icarə (500 min) |
| Mihael Hektor | m | 27 | 3 mln | Yamayka/İngiltərə | Çelsi | Fulhem | 8,8 mln |
| Marko Marin | y/m | 30 | 6 mln | Almaniya | S.Zvezda | Əl-Əhli | 2.25 mln |
| Dani Drinkvater | y/m | 29 | 6 mln | İngiltərə | Çelsi | Aston Villa | icarə |
| Oghenokoro Etebo | y/m | 24 | 5 mln | Nigeriya | Stok Siti | Xetafe | icarə |
| Zlatan İbrahimoviç | h | 38 | 3,50 mln | İsveç/Bosniya və Herseqovina | L.A Qalaksi | Milan | sərbəst agent |
| Lisandoro Lopes | m | 30 | 3,50 | Argentina/İspaniya | Benfika | Boka Xuniors | 3 mln |
| Rza Durmisi | m | 26 | 2,50 | Norveç/ Albaniya | Latsio | Nitsa | icarə |
| Toni Lato | m | 22 | 2 mln | İspaniya | Valensiya | Osasuna | icarə |



Dünya-idmanı

## Madrid "Real"ı 2020-ci ildə ilk kubokunu qazandı

Madrid "Real"ı tarixində 11-ci dəfə İspaniya superkubokunun qalibi adını qazanıb. 4 komanda- "Valensiya", "Barselona" və "Real"ın iştirakı ilə keçirilən yarışın finalında iki paytaxt komandası qarşılaşıb. Finala gedən yolda "Barselona"nı (3:2) hesabı ilə məğlub



edən "Atletiko" "Valensiya"nı mübarizədən kənarlaşdıran (1:3) "Real"a rəqib olub. Səudiyyə Ərəbistanının Ciddə şəhərində keçirilən final görüşündə əsas və əlavə vaxtda tərəflər fərqlənə bilməyib. Kubokun sahibi onbirmetrlik cərimə zərbələrindən sonra müəyyənləşib. Baş məşqçi Zinədin Zidanın komandası qapılara vurulan toplarda sərrastlıq nümayiş etdirərək (4:1), Super kuboka yiyələnib.





*Üfüqi*

*4. Şahmat Tacının sahibi. 5. Yeniyetmələrin Qış Olimpiya oyunlarına ev sahibliyi edən şəhər. 6. Rusiyada idman nəşri Sport-...8. Madrid "Atletiko"sunun futbolçusu. 9. Tennis dünyasının ən gənc ulduzlarından biri. 10. Asiya Hokkey Liqasında çıxış edən klub. 12. İdman geyimləri istehsal edən məşhur İtaliya şirkəti. 14. Amerika futbolunun əfsanəsi.16. Ölkə və velosiped markası.*

*Şaquli*

*1."Qarışqa" ləqəbli ispaniyalı məşqçi. 2. Dünya tələbələrini bir araya toplayan kütləvi idman tədbiri. 3. ABŞ-da ştat və basketbol klubu. 7. Formula 1 yarışlarında həyatını itirən braziliyalı üçqat dünya çempionu. 11. İkitəkərli minik vasitəsi. 12. Atçılıq idmanında yarış növü. 13. Maskerano, Hernandes. 15. Fristayl yarışlarında termin.*

## Mariya Şarapova Avstraliya Açıq çempionatına "wild card"la qoşulacaq

Rusiyalı tennisçi Mariya Şarapova Avstraliya Açıq çempionatına xüsusi dəvət alıb. Beləliklə, rusiyalı idmançı turnirin seçmə mərhələlərində iştirak etməyəcək. O, mübarizəyə yarışların əsas hissəsindən başlayacaq. Hazırda Mariya Şarapova Qadın Tennis Assosiasiyasının (WTA) 147-ci pilləsində yer alır. Qeyd dək ki, "Australian Open" turniri 20 yanvar - 2 fevral tarixlərində keçiriləcək. Məlumat üçün bildirək ki, Avstraliyada baş verən yanğınlar səbəbindən oyunlar yalnız qapalı kortlarda təşkil olunacaq.





## Ulduzlar da Avstraliyadakı yanğına biganə qalmadılar

Milli Basketbol Assosiasiyasının (NBA) 9 avstraliyalı oyunçusu öz ölkəsində meşə yanğınlarına qarşı mübarizə məqsədilə 750 min dollar məbləğ ayırıb.

Avstraliyanın şərq sahillərində genişmiqyaslı meşə yanğınları nəticəsində xeyli ərazi od içindədir, yanğınlar 6,5 milyon hektardan çox meşə ərazisini məhv edib. Yanğınlar 25 nəfər, o cümlədən 3 yanğınsöndürən və minlərlə canlının həyatına son qoyub. Formula 1 yarışlarının məşhur simalarından olan "Mersedes"in pilotu Luis Hemilton da bu faciəyə biganə qalmayıb. O, şəxsi Twitter hesabında yanğınla mübarizə üçün 500 min dollar bağışlayacağını deyib. "Avstraliya meşə yanğınları insanlara, heyvanlara zərər vurmasını görmək məni çox məyus edir. Bu həqiqətən ürək parçalayan mənzərədir. Heyvanları, könüllüləri və yanğın xidmətlərini dəstəkləmək üçün 500 min dollar bağışlayacağımı vəd edirəm", - deyə idmançı qeyd edib.

**olimpnews.az - sizin saytınız**



Fazil Hadıbəyov, Murad Fərzəliyev, Tahir Ələkbərli, Rasim Əliyev, Binyamin Mənsimzadə, İsmayıl Əliyev, Ceyhun İbrahimov, Saridan Mursaqulov, Güloğlan Vəliyev və Aslan Şirəliyev Azərbaycan Həmkarlar İttifaqları İdman Təşkilatları İctimai Birliyinin sədri Nadir Əliyevə, qardaşı

**Nazim Əliyevin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.
Allah rəhmət eləsin!

"Olimpiya dünyası" qəzetinin kollektivi Azərbaycan Həmkarlar İttifaqları İdman Təşkilatları İctimai Birliyinin sədri Nadir Əliyevə, qardaşı

**Nazim Əliyevin**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verirlər.
Allah rəhmət eləsin!

"Zenit" Bədən Tərbiyəsi İdman Cəmiyyəti İctimai Birliyinin kollektivi Azərbaycan Həmkarlar İttifaqları İdman Təşkilatları İctimai Birliyinin sədri Nadir Əliyevə, qardaşı

**Nazim Əliyevin**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verirlər.
Allah rəhmət eləsin!

"Olimpiya dünyası" qəzetinin kollektivi iş yoldaşları Aslan Şirəliyevə, əzizi

**Ağabikə xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.
Allah rəhmət eləsin!

"Olimpiya dünyası" qəzetinin kollektivi iş yoldaşları Aslan Şirəliyevə, əzizi

**Elmira xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.
Allah rəhmət eləsin!

Olimpiya dünyası

Baş redaktorun müavini: A.B.Şirəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168
AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
VÖEN 9900001881
H/H AZ79IBAZ38090019449333849204
M/H AZ03NABZ01350100000000002944
KOD 805722
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 40 qəpikdir.
Qəzet "Olimpiya dünyası"nın kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı günü çap edilir.

DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən "Olimpiya dünyası"na istinad etmək zəruridir.

*E-mail:* olimpiya_dunyasi@mail.ru
*Ünvan:* Bakı şəhəri, 2-ci sülh döngəsi, 2a.
*Tel.:* 564-90-49; 564-74-19